# “Ölkəmizi tanıyaq, Vətənimizi sevək...”




■ *“Tövsiyə etmək istərdim ki, bizim vətəndaşlar, yəni, müxtəlif bölgələrdə yaşayan vətəndaşlar vaxt tapıb digər bölgələrə də getsinlər. Yəni, cənub zonasının uşaqları getsinlər şimal zonasına, şimaldan gəlsinlər cənuba.*



***Bu olarsa, onda hər bir yerdə yaşayan vətəndaş ölkənin ümumi inkişafını daha da əyani şəkildə görər. Mən bunu görürəm, çünki son 10 il ərzində bölgələrdə, bəlkə, min dəfə olmuşam. Yəqin ki, mindən çox tədbir olubdur. Ancaq bölgələrdə yaşayan əhalinin böyük əksəriyyəti yalnız öz bölgəsinin inkişafını görür. Ona görə, arzu edirəm ki, çalışın Azərbaycanın hər bir yerində olun və görün ki, doğrudan da, Azərbaycan gözəl ölkədir. Həm təbiət müxtəlifliyi, eyni zamanda, mədəniyyət müxtəlifliyi vardır. Bu, bizim böyük üstünlüyümüzdür, böyük sərvətimizdir”.***

Azərbaycan Prezidenti İlham Əliyevin 2013-cü il sentyabrın 5-də Lənkəranda Gənclər Mərkəzinin açılışında cənub bölgəsinin gəncləri ilə görüşü zamanı söylədiyi bu fikirlər çox qısa zamanda minlərlə azərbaycanlı məktəblinin qoşulduğu möhtəşəm bir layihəyə çevrildi və 2014-cü ildə “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyası adı altında bütün ölkə ərazisində start götürdü. Artıq iki ildir ki, ölkə başçısının təşəbbüsü ilə reallaşan bu tur-aksiya çox böyük əks-səda yaratmış və təkcə paytaxt Bakıda deyil, bütün ölkə ərazisində yaşayan yeniyetmə-gənc həmvətənlərimizin tətil günlərində səbirsizliklə gözlədikləri əsl bayrama çevrilmişdir.

Apardığımız təhlillərdən aydın olur ki, ümumilikdə, 2014-cü ilin avqust ayından başlanmış və 4 mərhələdə keçirilmiş tur-aksiyalarda 74 şəhər və rayondan 5 min 155 məktəbli iştirak etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, artıq iki gündür ki, “Ölkəmizi tanıyaq” devizi altında maarifləndirici aksiyaların beçinci turuna start verilmişdir. Məktəblilərin yaz tətilinə təsadüf edən 2016-cı ilin martın 16-dan 19-dək və 24-dən 27-dək keçiriləcək bu tur-aksiyada 54 şəhər və rayondan 1980 şagird iştirak edəcək.



Aksiya çərçivəsində ölkə gəncləri Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Göygöl, Lənkəran, Astara, Masallı, Lerik, İsmayıllı, Qəbələ, Şəki, Quba, Qusar, Xaçmaz bölgələrində qədim tarixi- memarlıq, mədəniyyət abidələri ilə tanış olacaq, bölgələrimizin müasir simasını əks etdirən quruculuq işləri ilə tanış olacaq, Heydər Əliyev mərkəzlərinə, tarix-diyarşünaslıq muzeylərinə, gənclər mərkəzlərinə, Bayraq meydanlarına, rəsm qalereyalarına və s. obyektlərə baxış keçirəcəklər. Bu gəzintilər ölkəmizin tarixini dərindən öyrənməklə yanaşı, gənclərimizə hər bir şəhər və rayonun nümunəsində ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə milli dövlət quruculuğu sahəsində görülmüş işlərlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi dinamik sosial-iqtisadi inkişafla tanış olmaq imkanı yaradacaqdır.

Dünən, tur-aksiyanın başlandığı elə ilk gündə yurdumuzun qədim mədəniyyət mərkəzlərindən biri olan ulu Naxçıvandan 165 nəfərlik böyük bir məktəbli qrupunun gəldiyini eşidəndə, biz də Heydər Əliyev Hava Limanında onları qarşılamağa gedən Bakı məktəblilərinə qoşulmağa qərar verdik. Çox müasir və rahat avtobuslarda Bakı şəhərinin müxtəlif orta ümumtəhsil məktəblərini təmsil edən onlarca IX və X sinif şagirdi, yeniyetmə məktəblilərin milli geyimdə olan rəqs qrupları ilə yanaşı, Xətai rayon mədəniyyət mərkəzinin incəsənət ustaları da var idi. Qara zurnanın, aşıq musiqisinin sədaları bizi hava limanına qədər müşayiət etdi.

Hava limanında da bir qələbəlik var idi. Paytaxtın, elə bütün Azərbaycanın giriş qapısı olan bu liman, bəlkə, çoxdan belə şadyanalıq və təmtəraq görməmişdi. Əcnəbi qonaqlar, səfərə çıxmış həmvətənlərimiz naxçıvanlı dostlarını əllərində elimizin əziz bayramlarından olan Novruzun min bir neməti ilə bəzədilmiş xonçalarla qarşılamağa gələn Bakı məktəblilərinin könülləri riqqətə gətirən milli rəqslərinə böyük maraqla tamaşa edib, aşıq musiqisinin sehrindən yetərincə zövq alırdılar.

Yarım saat sonra Naxçıvandan gələn təyyarənin hava limanında endiyini elan etdilər. Bir azdan bura toplaşan məktəblilərdən kimisi ötən ildən tanış olduğu dostu ilə görüşəcək, kimisi də özünə yeni dost tapacaq və bu dostluğu ömrünün sonuna qədər qorumağa çalışacaqdı.

Qara zurnanın sədası bir anın içində hava lmanına toplaşan bütün insanların diqqətini özünə çəkdi. Amma əllərində milli bayraqlarımızı tutmuş bakılı şagirdlərin baxışları gözləmə salonuna açılan qapıda idi. Budur, ulu Naxçıvandan gələn məktəblilər qapıda görünməyə başlayır. Onları, ilk olaraq, Bakının Bahar qızı, Kosa və Keçəl salamlayırlar. Yüz ilin doğmaları kimi qucaqlaşan şagirdlərin, müəllimlərin isti və səmimi görüşləri adamı, bir andaca, duyğulandırıb başqa bir aləmə aparır.

Birlik və həmrəylik simvolu kimi toylarımızı, toplantılarımızı titrədən yallı sədaları hava limanını başına alır. Milli geyimli bakılı məktəblilər çox keçmir ki, qonaqları da meydana çəkirlər. İndi gəl bu məkanda qolboyun olan yallı gedən bu yeniyetmə azərbaycanlı balaların hansı regiondan, şəhərdən gəldiyini aydınlaşdır və bu insanların çoxlarının bu anacan heç tanış belə olmadıqlarına inan...

Elə bu düşüncələr içində ağlına bir fikir gəlir: Əhsən belə təşəbbüsü irəli sürüb, bu ölkənin bütün regionlarını bir-birinə, sözün əsl mənasında, qardaş edən rəhbərə! Min dəfə söz de, yüz kərə ekranda göstər, Vallah, bu nəticə hasil olan deyildi.

Məktəbli qonaqları müşayiət edənlərdən birinə yaxınlaşıram – **Naxçıvan şəhər təhsil çöbəsinin əməkdaşı Qızıllı Əliyeva:**




– Baxın, bu gözəlliyi başqa necə yaratmaq olardı?! Mən bu imkanı bizim xalqın balalarına, millətimizin gələcəyi olan gənclərə yaratdığına görə Prezidentimiz İlham Əliyevə minnətdaram. Bu gün bu tədbir sayəsində millətin balaları öz ölkələrinin tarixini, mədəniyyətini, mənəvi dəyərlərini tanımaqla yanaşı, onların sırasında, tarixin bütün dönəmlərində xalqımızın çox böyük ehtiyac duyduğu bir həmrəylik, birlik formalaşdırır.

**Naxçıvan şəhər qarnizon məktəbinin müəllimi Gülxarə Tanrıverdiyeva** bu aksiyanın gənclərdə



vətənpərvərlik hissinin güclənməsinə böyük töhfə verəcəyini söyləyir:

– Bu gün Bakıya gələnlərin arasında elə məktəblilər var ki, onlar vətənləri Azərbaycanın paytaxtına ilk dəfə ayaq basırlar. Mən əminəm ki, bu möhtəşəm şəhərdən çox böyük təəssüratla ayrılacaqlar.

Səfər proqramının çox zəngin olacağını söyləyən **17 saylı Naxçıvan şəhər orta məktəbinin müəllimi Bilqeyis Əliyeva isə deyir:**



– Bu tur-aksiyada Bakıya gələn şagirdlərimizdən bir çoxu ötən il də gəlmişdilər və burda özlərinə artıq dostlar tapıblar, onlarla tez-tez məktublaşırlar. Biz şahidi olduq ki, ilk səfərdən sonra məktəbimizin şagirdlərinin dünyagörüşündə nə qədər böyük dəyişiliklər oldu, onlarda ölkəmizin regionlarına necə böyük maraq oyandı. Artıq bu səfərdə yer almaq üçün onların dərslərə də, davranışlarına da münasibətləri dəyişdi. İndi hamı ciddi-cəhdlə çalışır ki, təhsildə fərqlənsin və onun adının qrupa salınmasından bəhs edəndə heç bir irad söylənilməsin. Əlbəttə, şagirdlərimiz arasında bu




çox böyük yarışmaya çevrilib. Möhtərəm Prezidentimizin bütün fəaliyyəti kimi, onun bu təşəbbüsü də bizim ürəyimizdən xəbər verdi. Valideynlər də bizimlə eyni fikirdədirlər və dövlət başçımızın bu təşəbbüsünü alqışlayırlar.

**Naxçıvan şəhərinin qarnizon və 8 saylı orta məktəblərinin şagirdləri Xəzər Dünyamalıyev və Aysel İmanova** da təəssüratlarını bizimlə bölüşərkən bildirdilər ki, “Ölkəmizi tanıyaq” devizi altında keçirilən bu tur-aksiya onların vətənpərvərlik, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunmasına, məktəblilərin dünyagörüşünün daha da zənginləşməsinə, Azərbaycan gəncliyi sıralarında həmrəyliyin və birliyin daha da möhkəmlənməsinə xidmət etmək məqsədi daşıyır.



Bu yaz tətilində Naxçıvandan gələn ilk qrupa daxil olan 165 məktəblinin üç gündən sonra doğma diyara hansı təəssüratla qayıdacağını elə qarşılanma mərasimindən də aydın görmək olurdu. Biz də qəti əminik ki, bu qarşılıqlı səfərlərin hədəfləri düzgün seçildiyindən, nəticələr də könlümüzcə olacaq və dövlətimizin inkişafına öz töhfələrini verəcək.

Düşünürəm ki, ölkəmizi tanımaq, həm də özümüzü, milli kimliyimizin köklərini tanımaqdır. Bunu yeniyetmə gənclərə tanıda biliriksə və bu, dövlət başçısı səviyyəsində diqqətdə saxlanılırsa, demək, gələcəyimiz üçün nigarançılığa əsas olmayacaq.

*İlqar RÜSTƏMOV,*
*Rafiq SALMANOV (foto),*
*“Xalq qəzeti”*